02.II.2025

Dəyərli Azərbaycan gəncləri, əziz dostlar,

Hər birinizi, 2 fevral – Azərbaycan Gənclər Günü münasibətilə səmimi qəlbdən təbrik edirik!

Bu gün Azərbaycan gəncliyi, həyatın müxtəlif sahələrində fərdi bilik və bacarıqlarını möhkəmləndirməsilə yanaşı, həm də cəmiyyətimizdə ədalət, mərhəmət, rəşadət, fədakarlıq və vətənpərvərlik keyfiyyətləri ilə seçilməkdədir.

Vətənimizin Güneyində milli azadlıq mübarizəsi yolunda öncül olmuş Azərbaycan gəncliyi, kimliyimizin, ana dilimizin, vətənimizin – milli varlığımızın müdafiəsində dayanaraq, yüksək cəsarət göstərməkdədir. “Azadlıq, Ədalət, Milli Hökümət!” şüarı ilə mübarizəmizdə qəti-iradəsini ortaya qoyan Gəncliyimiz, Milli Hökümətimizin varisi Azərbaycan Demokrat Firqəsinin amal və amaclarına sadiq qalaraq, ülvi və müqəddəs yolda öz qətiyyətini nümayiş etdirir.

2 fevral günü - 1997-ci ildə Azərbaycan Respublikamızda Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Gənclər Günü elan edilmişdir. Bu münasibətlə dünyanın hər yerində yaşayan azərbaycanlı gənclərimizi təbrik edir və davamlı uğurlar arzulayırıq!

Ən səmimi salamlarımızla,

Ayda ƏMİR HAŞİMİ
Azərbaycan Demokrat Firqəsi Gənclər Təşkilatı